# Komsomol təşkilatından mücahidliyə

## İslam Hacızadənin həyat hekayəsi

Dilqəm ƏHMƏD



***Mühacirətdə Çingiz Göygöl adı ilə tanınan İslam Hacızadə 1908-ci ildə Gəncə şəhərində doğulub. Atası Muxtar Hacızadə, anası Məşədi Yaqut xanım (təx. 1870-02.07.1942) olub. Anası əvvəlcə Məşədi Yusif bəylə evli olub, bu nikahdan Mirzə Hacızadə (1897-1981), Məcid Hacızadə (1899-1930-dan sonra) və Mahtaban xanım (təx. 1900-1970) adlı övladları dünyaya gəlib. Məşədi Yusif 1901-ci ildə vəfat etdiyi üçün dövrün adətlərinə görə Yaqut xanım ərinin***



***bacısı oğlu Muxtar bəylə evləndirilib. Bu evlilikdən də üç övlad dünyaya gəlib: Aslan bəy (1905-1930), Şölə xanım (1907-1979) və İslam bəy (1908-1986).***

İslam bəy orta təhsilini Gəncədə alıb, 1926-1927-ci illərdə Gəncə şəhər komsomol komitəsində işə düzəlib. Burada qısa müddət çalışıb, çünki ailə həyatı qurub Məşhəd şəhərinə köçən bacısı Mahtaban xanımı görmək üçün İrana yollanıb. Lakin sərhədlər bağlandığı üçün bir daha Azərbaycana qayıda bilməyib. Bundan sonra İslam bəy məşəqqətli yollarla Türkiyəyə gəlib. Nəsib bəy Yusifbəylinin oğlu Niyazi Kürdəmir haqqında qələmə aldığı nekroloq yazısında İslam bəy Türkiyəyə 1928-ci ildə gəldiyini bildirib.

### Azərbaycan Türk Tələbə Birliyindəki fəaliyyəti

Türkiyəyə gəldikdən sonra İstanbul Universitetində ali təhsil alan İslam bəy bu ərəfələrdə qurulan Azərbaycan Türk Tələbə Birliyinin sədri olub. Təşkilatın ilk sədri Kamal Qənizadə idi. İslam bəyin sədrliyi dövründə təşkilat bir sıra tədbirlər keçirib.

1933-cü il fevral ayının 19-da təşkil edilən ziyafət barədə “İstiqlal” qəzeti məlumat verib: “İstanbulun ali məktəblərində oxuyan Azərbaycanlı Tələbələr Birliyinin üzvləri fevralın 19-da günortadan sonra Bəyoğlu “Tokatlıyan” hoteli salonunda mükəlləf şəkildə musiqili-rəqsli çay ziyafəti tərtib eyləmişdir. Böyük salonun qapısı üzərində Türkiyə və Azərbaycan bayraqları asılmış və ziyafət Türkiyə və Azərbaycan milli marşları ilə başlamışdır. Hər iki marş ayaqda dinlənmiş, ondan sonra müvəffəqiyyətlə Azərbaycan, Türkiyə və Krım milli rəqsləri icra edilmişdir. Azərbaycan və Krım musiqiçiləri milli havalar çalmış, milli qiyafətlərdə edilən milli rəqslər çox alqışlanmışdır. Xüsusilə pianoda milli azəri havaları çalan və milli şərqilər oxuyan azərbaycanlı tələbə Dilşad xanım çox alqışlanmışdır. Ziyafətdə azərbaycanlı, türküstanlı və krımlı türklərdən başqa İstanbulun bir çox məşhur simaları, bəzi millət vəkilləri, universitet tələbələri iştirak edirdilər”.

Şəxsi arxivimizdə bu çay ziyafəti ilə bağlı nadir bir fotoşəkil mövcuddur. Həmin fotoşəklin arxasında birliyin möhrü və ATTB rəisinin imzası var.

1933-cü ildə Cümhuriyyətin 15-ci ildönümü ilə bağlı təşkil edilən tədbirdə niqt söyləyən İslam bəy yenidən istiqlalı əldə edənə qədər mübarizə aparacaqlarını bildirib, gəncliyin istiqlalı qazandıran mürşidlər qarşısında hörmətlə əyildiyini vurğulayıb.

Azərbaycanlı Tələbələr Birliyi 27 iyul 1933-cü ildə “Birlik” salonunda “Çini Türküstan türklərinin ictimai vəziyyəti haqqında” konfrans təşkil edib. Tədbiri giriş sözü ilə İslam Çingiz bəy açıb.

Çingiz bəy sonralar Əhməd bəy Ağaoğlunun vəfat edən oğlu Əbdürrəhman bəy haqqındakı qələmə aldığı məqaləsində sədrlik dövrünü belə xatırlayıb: “Dostlarımın yeni ilini təbrik etmək üçün adres kataloqumu gözdən keçirərkən qarşıma çıxan vizitkalar məni iyirmi il geriyə apardı. Film lenti kimi beynimdə əks olunan səhnələr məni sədri olduğum Azəri Türk Tələbə Birliyinin möhtəşəm balolarından birinə apardı. Məryəm, Leyla, Züleyxa, Dilşad, Vala, Firuzə, Süreyya, Qəmər, Almas və sairlə Niyazi, Məhəmməd, Lətif, Fuad, Saleh, Zəki, Məhəmmədəli, İsa, Həsən və sair kimi qız və oğlan yoldaşlarımız Azərbaycan gecələrinə ciddən xüsusi rəng qatırdılar”.

Krım türklərinin lideri Cəfər Seydahməd Krımər haqqındakı xatirə yazısında da o dövrə toxunub: “Səhv etmirəmsə otuz il əvvəl idi. Cəfər bəyi İstanbulda Kurtuluş bölgəsində mərhum dayım Azərbaycan Cümhuriyyətinin ədliyyə naziri Xəlil bəy Xasməhəmmədlinin evində tanımışdım... İllər keçdi, Azəri Türk Tələbə Birliyinin sədri olaraq İstanbulda idim. 28 May – Azərbaycanın İstiqlal Günü münasibətilə keçirilən törənə dəvətli idi...”.

***“İstiqlal”ın 1934-cü il tarixli 54-cü sayında verilən xəbərə görə, 25-30 nəfər İslam bəyə qarşı çıxaraq onu birliyin yanlış və zərərli şəkildə idarə etməklə yanaşı Azərbaycandakı vəzifəsi ilə bağlı sərt şəkildə ittiham ediblər: “Protestə imza atan tələbələrdən bir neçəsinin şəxsən şahid olduqlarından dolayı qətiyyətlə söylədiklərinə görə Azərbaycanlı Tələbələr Birliyi sədrliyini edən və bu gün İstanbul Darülfünununda tələbə olan İslam əfəndi bir neçə il əvvəl Gəncədən qaçmış və orada ikən “Kommunist Firqəsi”nə mənsub üzvlərdən olmuşdur. Kommunist olduğu üçün Gəncə komsomollar təşkilatı idarə heyətində çalışaraq bəzi tələbələri “sənin atan millətçidir, müsavatçıdır” deyə təhdid etmiş və bu***



***kimi ittihamlarla bir neçə tələbəni məktəbdən qovdurmuşdur”.***

Qəzet özü də bu iddiaya dəstək olub.

1934-cü ildə Türkiyədə çıxan soyadı qanunundan sonra Çingiz bəy qardaşı Mirzə Hacızadə kimi Göygöl soyadını götürüb

### Mühəndis İslam Çingiz Göygöl

İslam bəyin 1934-1949-cu illərə aid 15 illik dövrü haqqında geniş məlumat yoxdur. Ehtimal ki, bu illərdə universiteti bitirib, ixtisası üzrə çalışıb. “Ulus” qəzetinin 22 avqust 1943-cü il tarixli sayında kiçik bir elan verilib: “Vebolid su təsfiyə cihazları. Hər boyda yazı makinaları, şapiroqraf və hesab makinalarımız gəlmişdir. İ. Cengiz Gökgöl”. Göründüyü kimi, İslam Çingiz bəy həmin dövrlərdə ticarətlə məşğul olub. Bu kimi elanlar qəzetin sonrakı saylarında da verilib.

İslam bəy bu illərdə Pərixan adlı xanımla ailə həyatı qurub, bu nikahdan Yaqut, Güliz, Türkiz, Nərgiz adlı övladları doğulub.



### Azərbaycan dərnəklərindəki fəaliyyəti

Azərbaycan Türk Tələbələr Birliyinin sədri Çingiz bəyin mühacirətdəki növbəti aktiv dövrü 1950-ci illərdən etibarən başlayıb.

***1949-cu il fevralın 1-də Ankarada yaşayan mühacir azərbaycanlılar bu gün də fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyinin əsasını qoyublar. Dərnəyin qurucuları pilot Məhəmməd Altunbay, Cümhuriyyət tələbələrindən Dr. Həmid Ataman və kimyagər-dəriçi Dr. Əziz Alpaut olub. Təsis qurultayında H. Ataman dərnəyin ilk sədri seçilib. Qurumun fəxri sədri isə Məhəmmədəmin Rəsulzadə olub. Həmin gün Çingiz Göygöl dərnəyin müşahidə şurasına üzv seçilib. Dərnəyin nimzamnaməsinə görə əsas məqsədləri bunlardı: Azərbaycanı, onun tarixini, mədəniyyətini tədqiq etmək və yaymaq; Kitab, dərgi və qəzet çıxarmaq, mədəni toplantılar keçirmək; Möhtac azərbaycanlılara maddi-mənəvi yardım etmək.***

Keçmiş ədavəti unudan Çingiz bəy dərnəyin ilk ilində öz dəstəyini əsirgəməyib. Məsələn, dərnəyin 2 iyun 1949-cu ildə baş tutan Gar gazinosundakı ilk yeməkli gecəsi ilə bağlı mətbuatda yer alan elanda təşkilatçılar arasında “İ. Cengiz Gökgöl” imzasını görürük.

Azərbaycan Kültür Dərnəyinin qeydiyyat dəftərində Gökgöl İslam Cengiz adı üç qurucu üzvdən sonra dördüncü sıradadır. Qeydiyyat tarixi 1 mart 1949-cu ildir. Müvafiq xanada dərnəkdən istefa verdiyini, amma 02.12.1957-ci ildə yenidən qeydiyyata düşdüyü bildirilib.

Ehtimal ki, Göygöl dərnəkdən 1952-ci ildə istefa verib, çünki həmin ilin fevralın 8-də Ankarada Azərbaycan Milliyyətçilər Dərnəyi adlı yeni təşkilat təsis edilib. Nizamnamədə dərnəyin qurucuları kimi bu şəxslər göstərilib: Əhməd Ulusoy (mühasib), Əli Taşkənt (mühəndis), Çingiz Göygöl (inşaatçı), Hidayət Turanlı (mühəndis), İsa Göçər (mühəndis), İskəndər Xoyxan (hüquqşünas), Qədir Dilican (mühəndis), Məhəmməd Altunbay (pilot), Nağı Bayramgil (mühasib), Niyazi Kürdəmir (müəllim), Səfvət Zərdabi (mühəndis). Dərnəyin sədri Rəsulzadəyə müxaliflik edən Hidayət Turanlı olub. Lakin Çingiz bəyin bu dərnəklə olan münasibətləri də qısa müddət davam edib. Çünki 1953-cü ildə keçirilən qurultayı tanımayan qrupda yer alan Çingiz bəy ayrı bir toplantı keçirərək Həsən bəy Zərdabinin oğlu Səfvət bəyi sədr seçdiklərini elan ediblər. Lakin məhkəmə Hidayət Turanlının sədrliyini tanıyıb. Görünür, bundan sonra Çingiz bəy yenidən Azərbaycan Kültür Dərnəyi ilə münasibətlərini bərpa edib.

Göygöl sonrakı illərdə qurulan dərnəklərlə də münasibət saxlayıb. Məsələn, 6 mart 1959-cu ildə Azərbaycan Kültürünü Tanıtma Dərnəyi ilə Azərbaycan Yardımlaşma Dərnəyinin Məhəmmədəmin Rəsulzadənin anım günü ilə bağlı keçirdikləri tədbirdə onun məktubu oxunulub. Çingiz bəy Azərbaycan uğrunda çalışan insanların anım günlərinin qeyd edilməsinin önəmli olduğunu, ilk olaraq Fətəlibəyli, ardınca Rəsulzadə ilə bağlı bu mərasimin keçirilməsini alqışladığını, eyni zamanda Xəlil bəy Xasməhəmməd, Şəfi bəy Rüstəmbəyli, Əlimərdan bəy Topçubaşı, Əbdüləli bəy Əmircan kimi dövlət xadimlərinin də xatirə günlərində toplanmağın əhəmiyyətindən yazıb.

Eləcə də Azərbaycanı Tanıtma Dərnəyinin 28 may 1967-ci ildə Ankaradakı “Rüyam” lokantasında keçirdiyi 28 May tədbirində Çingiz Göygöl də iştirak edib, istiqlalın tarixi haqqında nitq söyləyib. Məzkur dərnəyin 18 aprel 1970-ci ildə Ankarada “Bulvar Palas” hotelində keçirdiyi “Üçüncü Böyük Azərbaycan Gecəsi”ndə iştirak edib. Bu dərnəyin 3 iyul 1971-ci ildə keçirilən qurultayında Çingiz bəy intizam divanına üzv seçilib.

### Mühacir dərgilərdəki fəaliyyəti

Çingiz Göygölün publisistik fəaliyyətinə 1952-ci ildə Ankarada çap olunan “Türk izi” dərgisinin ilk sayından etibarən rast gəlirik. May ayında işıq üzü görən birinci sayda onun “İ. Cengiz” imzası ilə “Ağaoğlu Əhməd bəy” adlı məqaləsi dərc olunub. Yazıda Əhməd bəyin bioqrafiyasının mühüm məqamlarına nəzər yetirilib. Dərginin ikinci sayında isə onun bu dəfə “Cengiz Gökgöl” imzası ilə “Milli dava” adlı məqaləsi yer alıb. Bu yazısında o, milli mübarizənin necə aparılmasının formulasını göstərib, milli birlik fikrini aşılayıb. Dərginin növbəti saylarında onun “Milli təsanüd ehtiyacı”, “Mərhum Hacı Zeynəlabidinin ölüm ili münasibətilə”, “Azərbaycan türklüyünün kommunizmlə mücadiləsi”, “Mərhum Ziya Gökalpı anarkən”, “Matəm günümüz” kimi yazıları çıxıb.

Ziya Gökalpla bağlı qələmə aldığı məqaləsində Gəncədəki dövrünə aid maraqlı məlumatlar verib: “Qəhrəman Gəncə şəhərində texnikumda tələbə ikən müəllimim C.A-nın direktivi ilə qurulan milli gizli təşkilatımız tez-tez toplantılar keçirirdi. Türkçü-millətçi olan təşkilatımızın sədri sevgili dostum Əhməd Mirzəzadə idi. (Bolşeviklərin güllələdiyi dostumu rəhmətlə anıram). C.A. Sibirdən sürgündən qayıtdığı zaman Əhməd onunla birbaşa təması kəsməyimizi bildirmişdi. Biz vasitəli olaraq görəcəyimiz işlər haqqında təlimat alırdıq. Lakin xocamız çox cəsurdu, məktəbdə bizə yaxınlıq və təmas göstərirdi. Məktəbimizdə bütün millətçi yoldaşlar Ziya Gökalpın məşhur “Rusiya dağılıb viran olacaq, Türkiyə böyüyüb Turan olacaq” misrasını əzbərləmişdi... Xocam C.A.-nın “Ziya Gökalpı bilməyənlər türklüyün cahilidir” sözü Əhmədin mənimsədiyi fikirlərin başında gəlirdi...”.

### “Mücahid” dərgisindəki yazıları

Azərbaycan Milliyətçilər Dərnəyinin rəsmi orqanı olan “Türk izi” dərgisi ilə münasibətləri kəsildikdən sonra Çingiz bəy “Mücahid” adlı dərgini təsis edib. Jurnalın ilk sayı 1955-ci ilin iyulunda çıxıb. Sahibi Çingiz Göygöl, nəşriyyat müdiri Səfvət Zərdabi olub. Jurnalın məqsədi məhkum Türk ellərinin mücahidlərini bir araya gətirmək, müştərək düşmənə qarşı mübarizə aparmaq olub. Jurnalda Çingiz Göygöllə yanaşı Mustafa Vəkiloğlu, Səfvət Zərdabi, Niyazi Kürdəmir, Məhəmməd Altunbay, Lətif Elsevər və digər müahcirlərin yazıları dərc edilib. Jurnalın 59 sayı işıq üzü görüb. Sonuncu sayı 1964-cü ilin noyabrında çıxıb.

“Mücahid”də Çingiz bəyin “Məhkum millətlərin istiqlallarının tanınması”, “Kommunistlərin yeni taktikası”, “Türkiyə Cümhuriyyətinin 32-ci ili”, “Əbdürrəhman Ağaoğlu”, “Böyük qətliamın ildönümü”, “İstiqlalın ildönümü”, “Mirzə Abayın iki əsəri”, “Cabbar Ərtürkün əsərləri”, “15 sentyabr 1918”, “İki şəxs, iki qayə”, “28 may nədən əhəmiyyətlidir?”, “Cəfər Seydahməd bəy”, “Ceyhun bəy Hacıbəylinin anarkən” və s. yazıları işıq üzü görüb.

“Mücahid”in 1955-ci ilin dekabr ayında çıxan 5-ci sayından etibarən o, uzun müddətdən sonra İslam Hacızadə imzası ilə keçmiş mücahidlər haqqında silsilə yazılara başlayıb və ilk olaraq gəncəli Həsən Binhektarın həyat hekayəsini təqdim edib.

***Çingiz bəyin Türkiyədə çıxan bəzi millətçi dərgilərdə də məqalələri işıq üzü görüb. 1958-ci ildə “Kommunist Rusiya və müsəlmanlar” adlı kitabı da çap olunub.***

***Göygöl 31 yanvar 1986-cı ildə vəfat edib.***